AQTA

**Azərbaycan Respublikası**
**Qida Təhlükəsizliyi Agentliyi sədrinin**
**"13" fevral 2025-ci il tarixli**
**3-äü-12 nömrəli əmri ilə təsdiq edilmişdir.**

# Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Keyfiyyət üzrə Siyasəti

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra - **Agentlik**), Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2017-ci il 13 noyabr tarixli Fərmanla təsdiq edilmiş **Agentliyin** Əsasnaməsində əks olunan fəaliyyət istiqamətlərinin təmin edilməsi məqsədi ilə və bu fəaliyyətindən irəli gələn vəzifələri yerinə yetirmək üçün **əsas prioritetləri** və **tətbiq mexanizmlərini** aşağıda qeyd olunduğu kimi müəyyən etmişdir:

➢ **Əsas prioritetlər**

- İş fəaliyyətinin Azərbaycan Respublikası qanunvericiliyinin, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin, daxili normativ sənədlərin və yuxarıda qeyd olunan Əsasnamənin tələbləri əsasında həyata keçirilməsinin təmin edilməsi;
- Xidmətlərin təqdim edilməsinə aid tələbləri tənzimləyən normativ sənədlərin müddəalarına riayət edilməsi;
- Sifarişlərin müvafiq tələblərə uyğun icrası istiqamətində təşkilatın resurslarının (kadr potensialı, maddi, texniki və digər resurslar) səfərbər edilməsi;
- Qurumun göstərilən xidmətlərin keyfiyyətinə, keyfiyyət sisteminin işlənib hazırlanmasına, tətbiqinə və effektivliyinin monitorinqinə, keyfiyyət siyasətinin müəyyən edilməsinə, keyfiyyətin təminatı işinin təşkilinə və fasiləsiz təkmilləşdirilməsinə görə məsuliyyət daşıması;
- Keyfiyyətin təmin edilməsinə görə hər bir icraçının şəxsi məsuliyyətinin müəyyən edilməsi, maddi və mənəvi həvəsləndirilməsinin təmin edilməsi;
- Qurumun xidmətlərinin təqdim edilməsi üzrə ixtisaslaşmış bütün əməkdaşlarının müasir keyfiyyət standartlarının tətbiqi istiqamətində təlimatlandırılması;
- Tətbiq edilən idarəetmə sistemlərinin, ISO/EN və kontekstin inkişafı tendensiyasından asılı olaraq digər beynalxalq standartların tələbləri əsasında tətbiqi və inkişafının təmin edilməsi;

- Keyfiyyətin təminatı sahəsində siyasətə və məqsədlərə zidd qərarlar qəbul edilməsinə yol verilməməsi.

➢ **Keyfiyyətin təminatı sisteminin tətbiqi mexanizmləri**

- Tətbiq olunan keyfiyyət sisteminin və bununla bağlı irəli sürülən tələblərin icrasının qurum rəhbərliyinin bilavasitə nəzarətində saxlanılması;
- Keyfiyyət sisteminin təhlili üzrə hesabatlılığın təmin edilməsi;
- Keyfiyyət sisteminin və bununla bağlı irəli sürülən tələblərin təmin olunması;
- Maraqlı tərəflərin ehtiyac və gözləntilərinin hərtərəfli öyrənilməsi, təhlili, qiymətləndirilməsi və idarətmə sisteminə uyğun tətbiqi mexanizmlərinin mövcud olması;
- Sifarişçilərdən daxil olmuş müraciətlərin, rəy və təkliflərin uçotu, sistemli baxılması və cavablandırılması mexanizmlərinin mövcud olması;
- Keyfiyyətin təminatı sisteminin mütəmadi təhlil edilməsi, təhlil nəticələrinə və sifarişçi məmnuniyyət göstəricilərinə müvafiq olaraq dövri təkmilləşdirilməsi;
- Əməkdaşların səriştəliliyin zəruri səviyyəsinin təmin edilməsi və artırılması istiqamətində səylərin cəmləşdirilməsi. Bunun əldə edilməsi üçün zəruri işçi heyətinin ixtisas yönümlü biliklərinin fasiləsiz artırılmasının və ümumilikdə təşkilatın intelektual potensialının inkişafının təmin edilməsi.